**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

**DOI: 10.59610/bbu1.2024.1.10**

*Məmmədov Fuad Elxan oğlu,*
*dissertant,*
*Bakı Dövlət Universiteti*
*E-mail: fuadm1992@gmail.com*
*© Məmmədov F.E., 2024*

**UOT - 327**

# MİLLİ MƏNAFE VƏ TƏHLÜKƏSİZLİYİN REALLAŞDIRILMASINDA XARİCİ TİCARƏTİN ROLU

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** milli mənafe və təhlükəsizliyin təmini baxımından xarici ticarətin rolunu araşdırmaq, bu istiqamətdə yeni tendensiyaları təyin etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - tədqiqat işinin yerinə yetirilməsi zamanı təhlil, müqayisə, qruplaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - milli mənafe və təhlükəsizlik terminlərinə fərqli və oxşar baxışlar təhlil edilmiş, xarici və yerli alimlərin fikirləri açıqlanmışdır. Azərbaycanın milli mənafenin qorunması və təhlükəsizliyinin təmini aspektində xarici ticarətin təhlili aparılmışdır.

**Tədqiqatın nəticələri** – xarici ticarətin milli mənafe və təhlükəsizlik baxımından rolunun çoxşaxəli olması və vahid bir yanaşmanın olmaması bu sahədə təqdiqatın aparılmasına ehtiyacın yarandığını göstərir. İndiyə qədər mövcud olan heç bir iqtisadi nəzəriyyə bu mürəkkəb əlaqəni tam əhatə edə bilməsə də, onların sintezi dəyişən qlobal mənzərədə iqtisadi inkişafa, milli təhlükəsizlik və beynəlxalq əməkdaşlığa üstünlük verən adaptiv ticarət strategiyalarını hazırlamaq üçün bir bazadır. Ölkəmizdə neft və neft məhsullarının ixracda xüsusi çəkisinin yüksək olması xarici ticarət əlaqələrində yeni yanaşmanın reallaşmasını zəruri edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – milli maraq və təhlükəsizliyin təminində xarici ticarətin rollarına dair nəzəri yanaşmaların, həmçinin milli mənafe və təhlükəsizliyin təminində xarici ticarətin rollarının sxematik qruplaşdırılaraq verilməsi tədqiqatın elmi yeniliyini əks etdirir.

**Açar sözlər:** xarici ticarət, mənafe, təhlükəsizlik, beynəlxalq təcrübə, tənzimləmə.

## G İ R İ Ş

Xarici ticarət dünya iqtisadiyyatının inkişafının əsasını təşkil etdiyi kimi, milli iqtisadiyyatların da artımına təkanverici təsir edir. Xarici ticarət, beynəlxalq əmək bölgüsünə əsaslanan və xarici iqtsadi əlaqələrin əsas cəhətlərindən biri olan əmtəə-pul münasibətlərinin inkişafı üçün münbit zəmin yaradır. Əsasən də xarici ticarət dövlətlərin iqtisadi artımına əhəmiyyətli dərəcədə təsir edir və çox vaxt bu artımın hərəkətverici qüvvəsi rolunu oynayır. Regional iqtisadi inteqrasiya üçün mühüm əhəmiyyət kəsb edir və daha dərin beynəlxalq əmək bölgüsü üçün şərait yaradır. Xarici ticarət vasitəsilə müxtəlif qlobal iqtisadi əlaqələrdən istifadə kapitalın ixracı, istehsal əməkdaşlığı, elmi-texniki əməkdaşlıq kimi nəticələrin reallaşdırılması

AUDİT 2024, 1 (43), səh. 121-133.
AUDIT 2024, 1 (43), pp. 121-133.
АУДИТ 2024, 1 (43), стр. 121-133.

baş verir. Xarici ticarət həm də xarici investisiya prosesləri və beynəlxalq hesablaşmalar üçün katalizator rolunu oynayır. Lakin son illər baş verən hərbi-siyasi münaqişələr, ticarət müharibələri, pandemiya və müxtəlif iqtisadi-ekoloji böhranlar, beynəlxalq ticarət qaydalarının pozulması kimi digər deqloblallaşma tendensiyaları xarici ticarətin reallaşmasında milli mənafenin qorunması və təhlükəsizliyin təmin edilməsi kimi vəzifələrə daha çox diqqətin artırılması tələbini qoyur.

**Milli mənafe və təhlükəsizliyin təminində xarici ticarətin roluna elmi baxış**

Elmi araşdırma "milli mənafe" və "dövlət mənafeyi" terminlərinə fərqli və identik yanaşmanın olmasını göstərir [20], [17, s.210-218]. Belə ki, A.A. Borisenkov hesab edir ki, formal nöqteyi-nəzərdən "milli mənafe" və "dövlət mənafesi" müxtəlif maraq növləridir, sadəcə bir-biri ilə əlaqəlidir, lakin onları qarışdırmaq olmaz [16, s.62]. Eyni mövqedən Lerçe Çarlz və Said Əbdül Əziz çıxış edərək bildirirlər ki, "milli mənafe"- dövlətin, millətin və hakimiyyətin xidmət etdiyi ümumi, uzunmüddətli və daimi məqsəddir [10]. Ancaq V.B.Pastuxov hesab edir ki, həm dövlət, həm də millət vahid sosial subyekt olduğundan onların mənafeyi eynidir [22, s.92-95]. Dövlət maraqları ilə milli mənafenin vəhdəti sövet dönəmindən sonra ictimai süurda inqilabi hadisə, milli təkamül və özünüdərk prosesində yeni mərhələ idi [2, s.61]. Ə.Həsənov qeyd edir ki, milli maraqlar beynəlxalq aləmdə dövlətin rəsmi fəaliyyətinin əsasını təşkil edir [3]. Biz öz tədqiqatımızda məhz bu yanaşmaya üstünlük verərək milli mənafeni elə dövlət mənafesi kimi qəbul edirik. Təhlil, həmçinin "milli mənafe" və "milli təhlükəsizlik" terminlərinə fərqli və identik yanaşmanın olmasını da göstərdi. Belə ki, bu iki terminin identikliyini izah etməyə çalışan A.A. Kokoşin qeyd edir ki, onlar sosial-siyasi təzahür kimi qəbul edilən "milli" sözünün müasir interpritasiyasından irəli gəlir [19]. Həm də "milli mənafe" bir növ qəbuledilmiş mahiyyətə malik real siyasi proseslər kateqoriyasıdır və "dövlət" sözünün sinonimi kimi istifadə edilir. Ancaq əksər alimlər iqtisadi təhlükəsizliyi dövlətin milli iqtisadiyyatı daxili və xarici təhdidlərdən müdafiə etməsi funksiyası kimi qəbul edir [21]. Düşünürük ki, ikinci hal daha düzgün yanaşmadır. Milli mənafe milli təhlükəsizliyin mahiyyəti və məzmunu ilə sıx bağlıdır. Bu baxımdan Shiraishi Shigeaki haqlı qeyd edir ki, iqtisadi təhlükəsizliyin əsas problemi "milli maraqların maksimumlaşdırılması perspektivindən iqtisadi məntiq və siyasi məntiq arasında tarazlıq yaratmaqdır". Lakin bazar prinsiplərinə əsaslanan iqtisadi səmərə axtaran iqtisadiyyatın məntiqi ilə demokratiya kimi iqtisadi səmərəlilikdən fərqli dəyərlər axtaran siyasətin məntiqi arasında tarazlıq yaratmaq asan deyil [13, s.78-91]. Yalnız iqtisadi amillə iqtisadi fayda və marağa üstünlük verilməsi inteqrasiyadan irəli gələn obyektiv və subyektiv meyillərin beynəlxalq miqyasda tənzimlənməsinin arxa plana keçməsinə, qlobal sabitliyi pozan vəziyyətin yaranmasına səbəb ola bilər [1, s.16]. Təhlükəsizliyin təmin edilməsi səviyyəsi milli maraqlara qarşı təhdidləri (məsələn, idxaldan asılılıq, ölkədən kapitalın çıxarılması, "ağılların" getməsi və s.) neytrallaşdırmaqla bu maraqların uğurla həyata keçirilməsilə müəyyən edilir [15]. Hazırda bütün dövlətlər öz milli mənafe məqsədlərinə nailolma prosesini həyata keçirməyə çalışır. Milli mənafe ölkənin resursları ilə yanaşı, həm də geosiyasi-iqtisadi parametrləri nəzərə almaqla formalaşır. Belə olan halda xarici ticarətin müvəffəqiyyəti dəqiq təyin edilmiş milli mənafe və onun reallaşması vasitələrini dərk etmədən çox asılıdır [20].

Milli mənafenin təmin edilməsində xarici ticarətin rolunu vurğulayan bir neçə nəzəri yanaşma mövcuddur. Onları şərti olaraq üç qrupa bölmək olar.

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

*Cədvəl 1.*

**Milli mənafenin təmin edilməsində xarici ticarətin roluna nəzəri yanaşmaların istiqamətləri**

| Nəzəri yanaşma istiqaməti | Mahiyyəti | Xarixi ticarətin rolu | Nümayəndə |
|---|---|---|---|
| **İqtisadi liberalizm** | İqtisadi liberalizm xarici ticarətlə milli təhlükəsizlik arasında müsbət əlaqənin yaradılması fikrinə əsaslanır. Beynəlxalq ticarətdə iştirak etməklə ölkələr öz iqtisadi rifahını artıra bilər ki, bu da ümumi təhlükəsizliyinə və sabitliyinə töhfə verir. Ticarət yolu ilə iqtisadi inteqrasiya qarşılıqlı faydaya və etimadın artmasına səbəb ola bilər. | Resurslar və mallarla mübadilə imkanın yaradıcısı – resurslara, xammala, mallara və xidmətlərə çıxış imkanı verir, sənaye diversifikasiyasını təşviq edir, iqtisadi dayanıqlığı artırır və təchizat zəncirinin zəifliklərini, riskləri azaldır. İqtisadi rifahın zəmini – yeni iş yerlərinin yaradılmasına, məhsuldarlığın və rəqabətqabiliyyətliliyin artmasına kömək edir ki, bu da ölkənin iqtisadi rifahını artırır. Texnoloji inkişafın dəstəkləyicisi – yeni texnologiyaların, innovasiyaların, ideyaların və biliklərin ötürülməsini asanlaşdırır və texnoloji tərəqqiyə dəstək verir. | Adam Smith, Jon Stüart Mill [12], Ann O.Kryuger, Robert Z.Lorens [4] |
| **İqtisadi millətçilik** | İqtisadi millətçilik baxışı xarici ticarətin milli təhlükəsizlikdəki roluna daha ehtiyatlı yanaşmaq fikrinə əsaslanır. Üzünü təminetmə və potensial təhlükələrə qarşı dayanıqlığa nail olmaq üçün yerli sənaye və resursların qorunmasının zəruriliyini, ədalətsiz ticarət təcrübələrinə qarşı həs-saslığı təbliğ edir. | Milli dözümlülüyün təminatçısı – xarici ticarət iqtisadi qeyri-müəyyənlik dövründə ölkələrə seçimlər təqdim edərək, konkret bazarlarda şoklara qarşı həssaslığı azalda, böhranlar zamanı ticarət tərəfdaşlıqlarına dəstək rolunu icra edir. Suverenlik və muxtariyyətin qoruyucusu - xarici ticarət əlaqələri ölkənin iqtisadi, siyasi və təhlükəsizlik ölçüləri üzrə milli maraqlarının qorunmasında mühüm rol oynayır. İqtisadi açıqlıq ilə strateji sənaye və resursların mühafizəsi maraqlarının balanslaşdırılmasını həyata keçirir. | Fridrix List [5], Deni Rodrik [6], Caqdiş Bxaqvati [7] |

AUDİT 2024, 1 (43), səh. 121-133.
AUDIT 2024, 1 (43), pp. 121-133.
АУДИТ 2024, 1 (43), стр. 121-133.

| | | | |
|---|---|---|---|
| **Geostrateji yanaşma** | Geostrateji yanaşma xarici ticarətin milli təhlükəsizlik üçün strateji təsirlərini vurğulayır. Bu baxışa görə, ticarət güc göstərmək, təsir göstərmək, geosiyasi üstünlüklər əldə etmək üçün alət ola bilər. Bu yanaşma daha geniş geosiyasi konteksti və ticarət nümunələri və asılılıqların potensial təhlükəsizlik təsirlərini nəzərə alır. | Geosiyasi diplomatik vasitə - ölkələrə ittifaqlar qurmağa və ikitərəfli və ya çoxtərəfli əlaqələri gücləndirməyə imkan verən diplomatik vasitə kimi xidmət edə bilər. Ticarət sazişləri qarşılıqlı maraq və ortaq məqsədləri təşviq etməklə siyasi sabitliyə, əməkdaşlığa töhfə verə bilər.<br>Təhlükəsizlik və sabitliyin təmini vasitəsi - iqtisadi əlaqələr sülh münasibətlərinin qorunmasında və təhlükəsizliyin təmin edilməsində qarşılıqlı maraqlara nailolmağa səbəb olur.<br>Təsir və yumşaq güc vasitəsi-bir millətə qlobal səhnədə öz maraqlarını və dəyərlərini təsdiq etməyə imkan verən iqtisadi güc və ölkənin mədəniyyətini, dəyərlərini və məhsullarını beynəlxalq səviyyədə tanıtmaqla onun yumşaq gücü qlobal təsirin vasitəsinə çevrilə bilər. | Nikolas Spaykmen [14], Alfred Tayer Maxan [8], Ceffri C.Şott [9] |

*Mənbə: müəllif tərəfindən [4,5,6,7,8,9,12,14] əsasında tərtib edilmişdir.*

Hazırda bir çox ökələr, o cümlədən Azərbaycan, hər üç nəzəri istiqamətin ideyasını özündə əks etdirən balanslaşdırılmış xarici ticarət əlaqələrini qurmaq üçün birincisi, açıq və liberallaşdırılmış ticarət əsaslı qarşılıqlı iqtisadi asılı əməkdaşlığı, ikincisi, həyati əhəmiyyət kəsb edən əsas sənayeləri və resursları qorumaq üçün proteksionizm və ya seçmə ticarət məhdudiyyətləri kimi strateji ticarəti və nəhayət, üçüncüsü, ölkənin iqtisadi strukturundan, onun geosiyasi mövqeyindən asılı olaraq effektiv ticarət siyasətini eyni vaxtda balanslaşdırmağa çalışır.

Ümumi olaraq xarici ticarət milli iqtisadiyyatın fəaliyyət göstərməsi üçün aşağıdakı rolları yerinə yetirir.

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

***Sxem 1.***

**Xarici ticarətin milli mənafe və təhlükəsizlik baxımından rolu**




***Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.***

Qeyd edək ki, xarici ticarətin milli mənafe və təhlükəsizliyin təminində rolunu əhatə edən nəzəriyyələrin tədqiqi qarşılıqlı iqtisadi əlaqələr və strateji imperativlər arasında mürəkkəb, lakin dinamik olan əlaqəni ortaya qoyur ki, bunu da aşağıdakı kimi qruplaşdırmaq olar:

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

– merkantilizm əlverişli ticarət balansının zəruriliyini təsdiq edir. Bununla belə, merkantelist prinsiplərə riayətetmə qarşılıqlı asılılığın müsbət faydalarının nəzərdən qaçırılmasına səbəb ola bilər ki, bu da həm milli mənafe, həm də təhlükəsizlik təhdidlərinin tam nəzərə alınmaması problemini yaşada bilər;

– neorealizm qlobal sistemin anarxik mahiyyətini və bunun nəticəsində dövlətlərin təhlükəsizliyi təmin etmək üçün güclərini maksimum dərəcədə artırmaq tələbini açıqlayır. Ticarətə tətbiq edilən bu nəzəriyyə, xalqların nisbi güclərini artırmaq üçün necə qarşılıqlı strateji-iqtisadi əlaqədə olduqlarını göstərir. Müasir dünyada enerji və nadir materiallar kimi kritik resurslara nəzarətin əhəmiyyəti milli maraqların qorunması üçün mərkəzi hala çevrilib. Üstəlik, iqtisadiyyatların bir-birinə bağlılığı qlobal ticarətdəki pozulmaların beynəlxalq münasibətlərə necə təsir göstərə biləcəyini və potensial olaraq münaqişə və ya əməkdaşlığa səbəb ola biləcəyini proqnozlaşdırmağa imkan verir;

– beynəlxalq ticarətin liberal nəzəriyyəsi limitsiz ticarətdən əldə edilən qarşılıqlı qazancın, beynəlxalq əməkdaşlığın və sabitliyin möhkəmlənməsinin təminatçısı kimi iqtisadi inkişafı, mütləq və müqayisəli üstünlüklər kimi isə ixtisaslaşma və azad ticarətin əhəmiyyəti qeyd edilir. Bu isə dövlətin təhlükəsizlik maraqlarını qarşıdurma deyil, əməkdaşlıq yolu ilə həyata keçirmək qabiliyyətini artıra bilər. Lakin potensial güc asimmetriyaları və xüsusi ticarət tərəfdaşlarından həddən artıq asılılıq nəticəsində yarana bilən zəifliklər nəzərə alınmalıdır;

– milli təhlükəsizliyin təmini kontekstində xarici ticarətin strateji çərçivəsi böhran zamanı zəiflik yarada bilən iqtisadi qarşılıqlı asılılığın potensial tələlərini müəyyən etməyə kömək edir. Beynəlxalq səviyyədə güclər balansını və öz mənafeyini qorumaq istəyi mürəkkəb xarici ticarət strategiyasına ehtiyacın hələ qalmasını göstərir;

– beynəlxalq müstəvidə milli iqtisadiyyatların qarşılıqlı əlaqəsi həm yeni imkanlar, həm də yeni problemlər yaradır. Bir tərəfdən qarşılıqlı iqtisadi-siyasi asılılıq münaqişələrin aradan qaldırılmasında mühüm rol oynayırsa, digər tərəfdən təhlükəsizlik baxımından təhdidlərin də artımına xidmət etmiş olur. Təchizat zəncirinin mürəkkəbləşməsi isə bu zəncirin iştirakçıları ilə bağlı qlobal miqyasda bir çox hərbi-siyasi, sosial-iqtisadi, ekoloji və digər amillərin dayanıqlığa təsirinin nəzərə alınmasını zəruri edir. M.Porter gözlənilməz təsadüfi hadisələrin determinant sisteminə və xarici iqtisadi vəziyyətə təsirinin nəzərə alınmasının zəruriliyini göstərir. Təsadüfi hadisələr (əmtəə qiymətlərinin kəskin dəyişməsi, valyuta məzənnələrinin əhəmiyyətli dərəcədə dəyişməsi və s.) dünya bazarında vəziyyəti kəskin şəkildə dəyişdirə, bəzi rəqabət aparan dövlətlərin mövqelərini zəiflədə, digərlərinin isə üstünlüklərini artıra bilər. Dövlət pul, vergi, gömrük siyasəti, eləcə də antiinhisar tənzimlənməsi yolu ilə determinantlar sisteminin tərkib elementlərinə təsir göstərir, aparıcı ixrac sahələrinin gücləndirilməsinə və onların beynəlxalq rəqabət qabiliyyətinin zəruri şərti kimi milli iqtisadiyyatlarda optimal rəqabət mühitinin saxlanmasına kömək edir;

– xarici ticarət təkcə kommersiya fəaliyyəti deyil, həm də ölkənin firavanlığı, suverenliyi və sabitliyi üçün geniş təsirləri olan güclü alətdir. Milli təhlükəsizlik ticarət nəzəriyyəsi xüsusilə təchizat zəncirinin pozulması, texnoloji zəifliklər və strateji resurs asılılığının təhlükəsizlik təsirlərini nəzərə alan çoxnüanslı ticarət siyasətlərinə ehtiyacın olmasını göstərir.

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

**Azərbaycanın milli mənafeyinin qorunması və təhlükəsizliyinin təmini aspektində xarici ticarətin təhlili**

Aparılan təhlil belə bir qənaətə gəlməyə imkan verir ki, 2003-2015-ci illərdə Azərbaycanın qeyri-neft məhsullarının xarici bazarlara çıxısı sahəsində asagıdakı maneələr mövcud olmuşdur:

- ixrac bazarlarında Azərbaycan məhsullarına qarşı digər ölkələrin təchizatçıları tərəfindən kəskin və ya qeyri-saglam rəqabət mövcud olub. Bu sahədə dövlətin xüsusi dəstəyinə ehtiyac duyulurdu;

- AB-nin ümumi güzəstlər sistemi sxemi altında Azərbaycanın qeyri-neft ixracına böyük güzəstlər edilsə də, onlardan istifadə səviyyəsi çox asağı olmuşdur və 2009-cu ilin məlumatlarına görə təqribən 58,5 % olmuşdur. Bu da malın mənsəyinin müəyyən edilməsi, texnoloji tələblərə əməl olunması və tələb olunan sənədlərin əldə edilməsindəki çətinliklər, eləcə də bunun üçün lazım olan xərclərin yüksək olması kimi problemlərlə əlaqədar olmuşdu. Əsasən yerli istehsalda texniki standartlar, keyfiyyət, saglamlıq və təhlükəsizlik məsələlərinə lazımi səviyyədə əməl edilmədiyindən bu, xarici bazarlara çıxıs zamanı maneə rolunu oynamışdır. Bu səbəbdən də Azərbaycanda texniki, ekoloji və sanitar-gigiyenik standartlaşma sistemin və ona nəzarətin təşkil edilməsinin təkmilləsdirilməsi həddən artıq vacib hesab edilmişdir;

- MDB ölkələri bazarlarına çıxışın azad olmasına və ölkələrin bəzilərinə spirt, tütün məmulatları üzrə istisnalar mövcud olmasına baxmayaraq, 2012-ci ildə bu istisnaların ləgvi nəzərdə tutulmuşdur;

2003-2015-ci illərdə Azərbaycanın xarici ticarət sahəsində xeyli irəliləyişlər də mövcud olmuşdur. Belə ki, 2003-cü illə müqayisədə 2015-ci ildə xarici ticarət dövriyyəsi 4,9 dəfə, idxal 3,5 dəfə, ixrac 6,4 dəfə artmışdır.

***Diaqram 1.***

**2003-2015-ci illər üzrə Azərbaycanın xarici ticarət dövriyyəsi, mlyn.ABŞ dolları**




| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010[2] | 2010 | 2011[2] | 2011 | 2012[2] | 2012 | 2013[2] | 2013 | 2014[2] | 2014 | 2015[2] |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ticarət dövriyyəsi | 5 216,6 | 7 131,4 | 8 558,4 | 11 638,9 | 11 771,7 | 54 926,0 | 20 824,5 | 33 160,7 | 27 960,8 | 44 161,7 | 36 326,9 | 43 813,5 | 33 560,9 | 43 554,1 | 34 687,9 | 39 407,5 | 31 016,3 | 25 809,0 |
| idxal | 2 626,2 | 3 515,9 | 4 211,2 | 5 266,7 | 5 713,5 | 7 170,0 | 6 123,1 | 6 600,6 | 6 600,6 | 9 756,0 | 9 756,0 | 9 652,9 | 9 652,9 | 10 712,5 | 10 712,5 | 9 187,7 | 9 187,7 | 9 216,7 |
| ixrac | 2 590,4 | 3 615,5 | 4 347,2 | 6 372,2 | 6 058,2 | 47 756,0 | 14 701,4 | 26 560,1 | 21 360,2 | 34 405,7 | 26 570,9 | 34 160,6 | 23 908,0 | 32 841,6 | 23 975,4 | 30 219,8 | 21 828,6 | 16 592,3 |
| saldo | - 35,8 | 99,6 | 136,0 | 1 105,5 | 344,7 | 40 586,0 | 8 578,3 | 19 959,5 | 14 759,6 | 24 649,7 | 16 814,9 | 24 507,7 | 14 255,1 | 22 129,1 | 13 262,9 | 21 032,1 | 12 640,9 | 7 375,6 |

***Mənbə: AR Dövlət Statistika Komitəsinin saytı: https://stat.gov.az/source/trade/ (26.08.2023 tarixə)***

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

Ölkədən ixrac olunan əmtəə strukturunda 2003-cü ildə əmtəə qrupları üzrə 79 adda məhsul qruplarında əmtəələr (qrup tərkibində 1218 adda məhsul) qeyd edilirdisə, artıq 2015-ci ildə bu rəqəm 87 qalxmışdı (qrup tərkibində məhsulların sayı isə 1,7 dəfə artmışdır). İxracın əsas hissəsini neft və neft məhsulları, mineral sular, kimya və kənd təsərrüfatı malları təşkil etmişdir. Həmin illərdə ölkəmiz elektrik enerjisi və qaz ixracatçısına çevrilmiş, Rusiya, İran, Türkiyə və Gürcüstana bu məhsulları ixrac etməklə regionda öz statusunu möhkəmləndirməyə, milli mənafeni geclәndirməyə müvəffəq olmuşdur. Qeyd edək ki, 2003-cü illə müqayisədə 2015-ci ildə Azərbaycan Respublikası ilə xarici ticarət əlaqələri qurulan ölkələrin sayı 129-dan 166 qalxmışdır.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasının əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" bu milli mənafenin qorunması istiqamətində tədbirləri daha səmərəli həyata keçirilməsinə xidmət etdi. 2003-cü ildə ölkəyə idxal olunan ərzaq məhsullarının çəkisi 11,8% idisə, 2015-ci ildə bu rəqəm 14,2% qalxsa da, bu rəqəm 1992-ci illə müqayisədə təqribi olaraq 4 dəfə aşağıdır və özünütəminatın yaxşı vəziyyətdə olmasını göstərir. Belə ki, 2015-ci ildə özünütəminetmə səviyyəsi bitkiçilik məhsulları üzrə dənlilərdə 64,5% olmuş, digər məhsullarda 89-132% arasında olmuşdur ki, bu da iqtisadi təhlükəsizliyin hədd göstəricisindən yuxarıdır. Eyni ilə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yaxşı göstəricilərə malik olan heyvandarlıq məhsullarıdır ki, donuz əti istisna olmaqla bu istiqamətdə özünütəminetmə səviyyəsi 77-99,7% arasında olmuşdur. Azərbaycan Respublikası Gömrük Komitəsi tərəfindən xüsusi laboratoriyaların açılması, ölkəyə gətirilən əmtəə və məhsulların mənşə ölkəsinin, keyfiyyətinin təyini, norma və standartlara uyğunluğunun yoxlanması nəticəsində həm yerli istehsalın inkişafına dəstək, həm də milli təhlükəsizlik baxımından mənafenin qorunmasına xidmət etmişdir.

Xidmətlərin tərkibində mühüm yer tutan nəqliyyat xidmətləri ölkəmizin milli mənafeyinin qorunmasına xidmət edə bilən və beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasının imkan yaradan əsas istiqamətlərdən biridir. Qərb ilə şərqin, şimal bazarları ilə cənub bazarlarının, inkişaf etmiş Avropa ilə sürətli inkişaf etməkdə olan Asiyanın sərhədlərini birləşdirən Azərbaycanın coğrafi mövqeyi ona beynəlxalq nəqliyyat və ticarət komminikasiyaların mühüm keçid məntəqəsi olmağa imkan verir. Bu ölkənin inkişaf mərhələsində Azərbaycana beynəlxalq iqtisadi münasibətlərdə rəqabət üstünlüyü verən və qısa zaman kəsiyində fəal inteqrasiyanı təmin edə biləcək başlıca amildir.

İxracyönümlü fəaliyyəti stimullaşdırmaq və Azərbaycan məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün dəstək tədbirlərini təmin etmək məqsədi ilə 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman imzaladı. Bu, ixrac fəaliyyətini təşviq etmək və Azərbaycan məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır. Strateji yol xəritəsi ixracatçıları dəstəkləmək üçün tədbirləri, o cümlədən maliyyə stimulları, ixrac kreditləri, bazar araşdırmaları və ixracın təşviqi istiqamətində stimulları təmin edən sənədə çevrildi. Xarici investorlara stimul və təminatlar verməklə birbaşa xarici investisiyaları cəlb etmək və əlverişli investisiya mühiti yaratmaq məqsədi ilə investisiyaların təşviqi ilə bağlı qanun qəbul edildi. Bu qanun əlverişli investisiya mühiti yaratmaqla birbaşa xarici investisiyaları cəlb etmək məqsədi daşıyır. Vergi güzəştləri, torpaqların ayrılması, mülkiyyət hüquqlarının qorunması və mübahisələrin həlli mexanizmləri daxil olmaqla, investorlara stimul və təminatlar təqdim edir. Beynəlxalq standartlara uyğun ədalətli rəqabətin yaradılmasına və xarici iqtisadi fəaliyyətdə bazarın səmərəliliyinin artırılmasına yönəlmiş Rəqabət

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

Məcəlləsinin qəbulu istiqamətində addımlar mühüm hesab edilir. Bu qanun daxili və beynəlxalq ticarətdə ədalətli rəqabəti təşviq etmək və rəqabətə zidd təcrübələrin qarşısını almaq məqsədi daşıyır.

Yuxarıda qeyd edilən tədbirlər Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşlarının sayının artmasına bilavasitə müsbət təsir göstərdi. Ümumilikdə 2005-2022-ci illər ərzində xarici ticarət əlaqələri qurulan ölkələrin sayı 236 olmuşdur. Əgər Azərbaycan 2003-cü ildə 129 ölkə ilə ticarət əməliyyatı həyata keçirmişdisə, 2022-ci ildə isə xarici ticarət əlaqələri qurulan ölkələrin sayı 186-ya çatmışdır.

***Diaqram 2.***

**Azərbaycan Respublikasının idxal və ixracının coğrafi strukturunun müqayisəli təhlili, %**







| | İdxal 2003 | İdxal 2022 | İxrac 2003 | İxrac 2022 |
|---|---|---|---|---|
| Avropa | 54,8 | 41,3 | 76,9 | 72,7 |
| Asiya | 38,3 | 51,9 | 20,5 | 25,1 |
| Amerika | 6,4 | 6,0 | 2,5 | 0,3 |
| Afrika | 0,1 | 0,3 | 0,1 | 1,5 |
| Okeaniya | 0,4 | 0,5 | 0,0 | 0,4 |

***Mənbə: Müəllif tərəfindən AR Dövlət Statistika Komitəsinin saytı: https://stat.gov.az/source/trade/ (26.08.2023-cü il tarixinə) məlumatları əsasında tərtib edilib.***

2003-cü illə müqayisədə 2022-ci ildə ölkəmizə idxalda Avropa regionu ölkələrinin xüsusi çəkisi 54,8 %-dən 41,3 % qədər azaldığı halda, Asiya regionu ölkələrinin xüsusi çəkisi 38,3%-dən 51, % qədər artmış, Amerika regionu ölkələrinin xüsusi çəkisi 6,4%-dən 6,0%-ə qədər azalmışdır. Eyni proses ixracda da müşahidə olunmuşdur. Eynilə 2003-cü illə müqayisədə 2022-ci ildə ölkəmizin ixracında MDB ölkələrinin xüsusi çəkisi 8,6 %-dən 4,3% qədər

AUDİT 2024, 1 (43), səh. 121-133.
AUDIT 2024, 1 (43), pp. 121-133.
АУДИТ 2024, 1 (43), стр. 121-133.

azaldığı halda, digər ölkələrin xüsusi çəkisi 91,4%-dən 95,7%-ə qədər artmışdır. Bu tendensiya idxalda da özünü göstərmişdir. Respublikanın xarici ticarətdə Asiya ölkələrinə meyil etməsi bu regionun ölkələrinin ticarət tərəfdaşı kimi rolunun artdığını göstərir. Bu isə bilavasitə davamlı inkişafa transformasiya olunma dövründə strateji tərəfdaşların seçilməsi, ticarət axınlarının prioritet və perspektiv istiqamətlərinin müəyyən edilməsi, idxal və ixrac əməliy-yatlarında milli mənafenin qorunması imkanlarını proqnozlaşdırmağı zəruri edir. MDB ölkələrinin ənənəvi ticarət tərəfdaşları kimi payı son illərdə əhəmiyyətli dərəcədə azalsa da, respublikanın həm ixracında, həm də idxalında kifayət qədər mühüm yer tutur. Bu vəziyyət, əsasən, son illərdə GUAM ölkələri ilə ticarət əlaqələrinin qırılmaz artımı hesabına saxlanılır. MDB ölkələrinin bazarında Azərbaycan malları uzaq xarici ölkələrin digər ölkələrinin bazarlarına nisbətən daha yüksək müqayisəli və rəqabət üstünlüklərinə malikdir. Bu bazarlar az doymuşdur və müxtəlif emal dərəcələrinə malik Azərbaycan malları üçün ənənəvidir. Ona görə də MDB Azərbaycan istehsalçıları üçün böyük bazar məkanıdır və perspektivli və strateji prioritet kimi qiymətləndirilməlidir. Bu, həmin iqtisadi amillərlə yanaşı, həm də geosiyasi, nəqliyyat-kommunikasiya, hərbi-strateji və digər amillərlə bağlıdır.

## YEKUN

Beləliklə, apardığımız araşdırma xarici ticarətin milli mənafe və təhlükəsizlik baxımından rolunun çoxşaxəli olmasını və vahid bir yanaşmanın olmamasını, lakin buna ehtiyacın yarandığını göstərir. İndiyə qədər mövcud olan heç bir iqtisadi nəzəriyyə bu mürəkkəb əlaqəni tam əhatə edə bilməsə də, onların sintezi dəyişən qlobal mənzərədə iqtisadi inkişafa, milli təhlükəsizlik və beynəlxalq əməkdaşlığa üstünlük verən adaptiv ticarət strategiyalarını hazırlamaq üçün bir bazadır.

Yuxarıda qeyd edilən müasir nəzəriyyələr öz yanaşmalarında hər biri fərqli perspektivlər təklif etsə də, beynəlxalq reallıq onların sintezini tələb etdiyi aydındır. Hərtərəfli xarici ticarət strategiyası açıqlıq ilə proteksionist tədbirləri balanslaşdırmalı, həm özünə inam, həm də qarşılıqlı asılılığa üstünlük verməli və zəiflikləri proaktiv şəkildə həll etməlidir. Dünya təkamülə davam etdikcə, xarici ticarət vasitəsilə milli maraqların və təhlükəsizliyin təmin edilməsi dinamik və davamlı bir səy olaraq qalır və bu, bir-biri ilə əlaqəli və daim dəyişən qlobal mərhələnin mürəkkəbliklərini idarə edən çevik siyasətlərin işlənib hazırlanması və tətbiqini zəruri edir.

Tədqiqat dövründə Azərbaycanın ixracının əmtəə strukturu resurs-xammal istiqaməti və onun tərkibində neft məhsullarının xüsusi çəkisinin üstünlük təşkil etməsi ilə xarakterizə olunur. İxracın strukturunda oxşar tendensiyalar digər MDB ölkələrində - Rusiya, Ukrayna, Qazaxıstan, Türkmənistan və s.-də müşahidə olunur ki, bunun da əsas səbəbi bir tərəfdən, nisbətən zəngin təbii ehtiyatların və xammalın mövcudluğu, digər tərəfdən bu ölkələrin yerli emal sənayesinin dünya əmtəə bazarlarında rəqabətə davamlı olmamasıdır. Xammalın xalis ixracı ÜDM-in 10 - 12%-ni, bəziləri isə hətta 5-6%-ni keçməyən bəzi inkişaf etmiş ölkələri - Kanada, Avstraliya, Hollandiya, Braziliya və s. kimi xammal ixracatçılarını misal göstərmək olar. Təbii ki, belə çərçivələr daxilində xammalın ixracı kifayət qədər rasional və səmərəli həyata keçirilir və ölkənin ticarət balansında heç bir məlum sindrom və fəsadlar törətmir, ticarət şərtlərini, ixracın və ümumilikdə xarici ticarət fəaliyyətinin səmərəliliyini pisləşdirmir. Ölkəmizdə neft və neft məhsullarının ixracda xüsusi çəkisinin yüksək olması xarici ticarət əlaqələrində yeni yanaşmanın reallaşmasını zəruri edir.

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Aslanova R. Azərbaycanın dünyaya inteqrasiyasında yeni mərhələ, Milli Məclis jurnalı, 2009, №2(10), mart-aprel. s. 16

2. Babanlı Y. Dünya Azərbaycanlılarının konsolidasiyasının Naxçıvan mərhələsi, 2022, Geostrategiya №5 (71), s. 61.

3. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, "Zərdabi LTD", 700 s.

4. Craig Van Grasstek The hıstory and future of the world trade organızatıon. World Trade Organization, 2013. ISBN 978-92-870-3871-5

5. Dani Rodrik Populism and the economics of globalization. Working Paper 23559 http://www.nber.org/papers/w23559, NATIONAL BUREAU OF ECONOMIC RESEARCH 1050 Massachusetts Avenue Cambridge, MA 02138 June 2017, Revised July

6. David Levi-Faur Friedrich List and the Political Economy of the Nation-State. Review of International Political Economy, 1997. Vol. 4, No. 1 (Spring, 1997), pp. 154-178 (25 pages)

7. Douglas Nelson Endogenous Tariff Theory: A Critical Survey American Journal of Political ScienceVol. 32, No. 3 (Aug., 1988), pp. 796-837

8. Hattendorf, J.B. Alfred Thayer Mahan and his Strategic Thought. In: Hattendorf, J.B., Jordan, R.S. (eds) Maritime Strategy and the Balance of Power. St Antony's. Palgrave Macmillan, London. 1989, https://doi.org/10.1007/978-1-349-09392-2_5

9. Langhammer, Rolf J.: [Book Review of] The WTO after Seattle, Jeffrey J. Schott (ed.): Washington, DC, Inst. for Internat. Economics, 2000, Weltwirtschaftliches Archiv, ISSN 0043-2636, Mohr, Tübingen, Vol. 137, Iss. 1, pp. 184-185

10. Lerche Charles O., Said Abdul Aziz Concepts of International Politics. / 2-nd edn. – New Delhi, 1972. 25 p.

11. Leschenko Yu.G. National interests in the context of ensuring the state's economic security amid global integration: an evolutionary and theoretical aspect. Voprosy innovatsionnoy ekonomiki. 2020, 10. (4). – 2375-2390. doi: 10.18334/vinec.10.4.110815

12. Lisa L.Martin The politicaleconomy of international trade. The Oxford Handbook of.. Oxford University Press. 2015 Published By: Taylor & Francis, Ltd. https://edisciplinas.usp.br/pluginfile.php/5144825/mod_resource/content/1/%28Oxford%20Handbooks%29%20Lisa%20L.%20Martin%20-%20The%20Oxford%20Handbook%20of%20the%20Political%20Economy%20of%20International%20Trade-Oxford%20University%20Press%20%282015%29.pdf

13. Shiraishi Shigeaki (2022) The Essential Challenge of "Economic Security", Asia-Pacific Review, 29:3, 78-91, DOI: 10.1080/13439006.2022.2154508

14. Wilkinson, D. Spykman and Geopolitics. In: Zoppo, C.E., Zorgbibe, C. (eds) On Geopolitics: Classical and Nuclear. NATO ASI Series, vol 20., 1985, Springer, Dordrecht. https://doi.org/10.1007/978-94-009-6230-9_4

15. Бидова Б.Б. Концептуальные теоретико-правовые основы теории национального интереса. Национальная ассоциация ученых (НАУ), 74, 2021

16. Борисенков А.А. Представления об индивидуальном интересе и их значение для изучения национальных интересов //Вестник Сибир. ин-та Бизнеса и информационных технологий. 2015. № 3 (15). С. 62.

17. Володин В.М., Рожкова Л.В., Скворцова В.А. Национальные экономические интересы и обеспечение экономической безопасности России//Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. 2015. № 4 (36). с. 210–218

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

18. Вякина И.В. Концептуальные Вопросы определения экономической безопасности на микро-, мезо- и макроуровнях// Национальные интересы: приоритеты и безопасность. 2016. №6 (339).

19. Кокошин А.А. Национальные интересы, реальный суверенитет и национальная безопасность//Вопросы философии. 2019. URL: http://vphil.ru/index.php?option=com_content&task=view&id=1258

20. Лещенко Ю.Г. Национальные интересы в контексте обеспечения экономической безопасности государства в условиях глобальной интеграции: эволюционно-теоретический аспект // Вопросы инновационной экономики. 2020. Том 10. № 4. с. 2375-2390. doi: 10.18334/vinec.10.4.110815

21. Пак А.Ю. Внешнеторговая безопасность и система ее обеспечения как особенный элемент экономической безопасности государства//Вестник РУДН. Серия: Экономика. 2020. №3.

22. Пастухов, В. Б. Национальный и государственный интересы России: игра слов или игра в слова? / В. Б. Пастухов // Полис. 2000. № 1. с. 92–95

23. https://stat.gov.az/source/trade/

*Fuad Elkhan Mammadov,*
*Ph.D. Student,*
*Baku State Universty*
*E-mail: fuadm1992@gmail.com*
*© F.E.Mammadov, 2024*

# THE ROLE OF FOREIGN TRADE IN THE REALIZATION OF NATIONAL INTEREST AND SECURITY

## A B S T R A C T

**The purpose of the research** is to examine the role of foreign trade in terms of ensuring national interests and security, and to determine new trends in this direction.

**The methodology of the research** - analysis, comparison, and grouping methods were used during the research.

**The practical importance of the research -** different and similar views on the terms of national interest and security were analyzed, and the opinions of foreign and domestic scientists were disclosed. The analysis of foreign trade was carried out in the aspect of protection of national interests and security of Azerbaijan.

**The results of the research -** the fact that the role of foreign trade in terms of national interest and security is multifaceted and lack of a unified approach shows that there is a need for research in this area. Although no existing economic theory can fully capture this complex relationship, their synthesis provides a basis for developing adaptive trade strategies that prioritize economic development, national security, and international cooperation in a changing global landscape. The high specific weight of oil and oil products in exports in our country makes it necessary to implement a new approach in foreign trade relations.

**The originality and scientific novelty of the research -** the theoretical approaches to the roles of foreign trade in ensuring national interest and security, as well as the schematic grouping of the roles of foreign trade in ensuring national interest and security, reflect the scientific novelty of the research.

**Keywords:** foreign trade, interest, security, international experience, regulation.

**AUDİT 2024, 1 (43), səh. 121-133.**
**AUDIT 2024, 1 (43), pp. 121-133.**
**АУДИТ 2024, 1 (43), стр. 121-133.**

*Мамедов Фуад Эльхан оглы,*
*диссертант,*
*Бакинский Государственный Университет,*
*E-mail: fuadm1992@gmail.com*
*© Мамедов Ф.Э., 2024*

# РОЛЬ ВНЕШНЕЙ ТОРГОВЛИ В РЕАЛИЗАЦИИ НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСОВ И БЕЗОПАСНОСТИ

## Р Е З Ю М Е

**Цель исследования -** рассмотреть роль внешней торговли с точки зрения обеспечения национальных интересов и безопасности, а также определить новые тенденции в этом направлении.

**Методология исследования –** в ходе исследования использовались методы анализа, сравнения и группировки.

**Практическая значимость исследования -** проанализированы разные и схожие взгляды на вопросы национальных интересов и безопасности, раскрыты мнения зарубежных и отечественных ученых. Анализ внешней торговли проводился в аспекте защиты национальных интересов и безопасности Азербайджана.

**Результаты исследования -** тот факт, что роль внешней торговли с точки зрения национальных интересов и безопасности многогранна и отсутствие единого подхода, показывает, что существует необходимость исследований в этой области. Хотя ни одна существующая экономическая теория не может полностью отразить эти сложные взаимоотношения, их синтез обеспечивает основу для разработки адаптивных торговых стратегий, которые отдают приоритет экономическому развитию, национальной безопасности и международному сотрудничеству в меняющемся глобальном ландшафте. Высокий удельный вес нефти и нефтепродуктов в экспорте нашей страны обусловливает необходимость реализации нового подхода во внешнеторговых отношениях.

**Оригинальность и научная новизна исследования -** теоретические подходы к роли внешней торговли в обеспечении национальных интересов и безопасности, а также схематическая группировка ролей внешней торговли в обеспечении национальных интересов и безопасности отражают научную новизну исследования.

**Ключевые слова:** внешняя торговля, интерес, безопасность, международный опыт, регулирование.

*Məqalə redaksiyaya daxil olmuşdur: 04.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 06.02.2024*
*Çapa qəbul olunmuşdur: 01.03.2024*

*The date of the admission of the article to the editorial office: 04.01.2024*
*Send for reprocessing: 06.02.2024*
*Accepted for publication: 01.03.2024*

*Дата поступления статьи в редакцию: 04.01.2024*
*Отправлено на повторную обработку: 06.02.2024*
*Принято к печати: 01.03.2024*